

Süleyman Rüstəmlə

Vaqif Bayatlı ODƏR

## Kitabları oxumaqçün yox, doğmalıqdan sevinmələrini görmək çün alıram

*"Özü öz dərdinə gülümsənməyi öyrənmişdi..."*

**Elçin**

*Kitabları oxumaqçün yox, onların çiçəklərtək doğmaca,*
*Göylərtək səssizcə nəfəs almalarını,*
*Hətta ömründə heç bir kitab oxumayanlara da*
*Kitablardakı sevgilərdən də böyük sevgiylə baxmalarını,*
*İnsanlarla ilahi doğmalıqdan sevinmələrini,*
*Gülümsəmələrini görməkçün gətirərəm evə.*

*Ancaq hər dəfə gecə işığı söndürüb yatanda*
*bütün körpələrtək qaranlıqda qəmlənir susur*
*hətta, deyəsən, bir az da məndən küsür kitablar,*
*hər səhər onların könlünü alıram birtəhər,*
*mən ən yaxşı şeirlərimi o anda -*
*məndən küsmüş kitabların könlünü alanda yazmışam.*

*Adam olmayan adamdan, qəm olmayan qəmdən incidim,*
*ancaq kitab olmayan kitabdan heç bir zaman,*
*mən hər kitabda mənadan qabaq doğma sözlərin*
*əyri-üyrü, ancaq doğma duruşunu duyuram,*
*mənim canımda da eləcə bir-birinin yanında*
*bir-birindən doğma durur o sözlər, o canlar,*
*başqa sözlər, başqa canlar başqa şəkildə duranda*
*başqa dünyaların, başqa dillərin,*
*başqa zalımların olurlar onlar.*



1999. Ankara. Türkiyə Cümhur Başqanı Süleyman Dəmirəllə



2014. İstanbul. Elçin, Yaşar Kamal, Dr.Prof. Ziya Akçetin



1988. Bosforda